Tarix və onun problemləri, №1-2 2009

İQBAL AĞAYEV
*Asiya və Afrika ölkələri tarixi kafedrasının dosenti*

# XX ƏSRİN 80-Cİ İLLƏRİNDƏ TÜRKİYƏNİN XARİCİ SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Çoxəsrlik, zəngin dövlətçilik ənənələri olan Türkiyə Cümhuriyyəti XX əsrin 80-ci illərində xarici siyasət sahəsində bir sıra yeni problemlərlə üzləşdi. Türkiyənin xarici siyasətinin mahiyyəti M.K.Atatürkün hələ 1923-cü ildə irəli sürdüyü və 1929-cu ilin 7 dekabrında «Milliyyət» qəzetində açıqlanmış mülahizələrində aydın şəkildə ifadə olunmuşdur: «Yeni Türkiyənin yeridəcəyi siyasət qeyri-müəyyən və ixtiyari ola bilməz. Bizim siyasətimiz mütləq millətin qabiliyyət və ehtiyacı ilə mütənasib olmalıdır. Bizim üçün nə İttihadi-İslam, nə Turanizm məntiqi bir siyasət yolu ola bilməz. Daha yeni Türkiyənin dövlət siyasəti milli sərhədləri daxilində öz hegemonluğuna əsaslanaraq müstəqil yaşamaqdır. Hərəkət şüarımız budur» (7, 166). Ölkənin milli təhlükəsizliyinin təminatı Türkiyənin xarici siyasətinin başlıca məqsədidir. Həmin məqsədin reallaşdırılması çoxtərəfli diplomatiyadan istifadəni zəruri etsə də, iki konkret istiqamətin – Qərb və Şərq istiqamətlərinin prioritet kimi aparılmasını aktuallaşdırmışdır.

Qərb dövlətləri ilə siyasi və iqtisadi sahələrdə münasibətlərin inkişaf etdirilməsi keçən əsrin 80-ci illərində də Türkiyənin xarici siyasətinin aparıcı istiqaməti olmuşdur. Bu xarici siyasətin əsasını ABŞ-la hərbi-siyasi əməkdaşlıq, NATO-nun çoxcəhətli tədbirlərində fəal iştirak etmək təşkil edirdi. Hələ 1980-ci il sentyabr çevrilişindən əvvəl, 1980-ci il martın 29-da ABŞ-la Türkiyə arasında Müdafiə və iqtisadi sahədə əməkdaşlıq haqqında saziş – Savunma və ekonomik işbirliyi Andlaşması imzalandı. Beləliklə, uzun sürən danışıqlardan - Yunanıstana qarşı amerikan silahının işlədilməsinə ABŞ embarqosu və Türkiyənin buna qarşı cavab tədbirlərindən sonra ölkə ərazisindəki birgə müdafiə obyektləri müəyyən status əldə etdi.

Türkiyə tarixçisi N.Usluya görə, «bu sazişin Ecevit və Dəmirəlin başçılıq etdiyi solçu və sağçı iqtidarlar tərəfindən görüşülüb imzalandıqdan sonra K.Evrenin idarəsindəki hərbi rejim tərəfindən ratifikasiya edilməsi Türkiyədə iqtidarda olan bütün hökumətlərin ABŞ-la münasibətdə eyni mövqe tutmasının bariz nümayişi idi (9, 219). Beş il müddətinə imzalanmış, 9 maddəlik əsas hissədən, 3 tamamlayıcı və 7 təsis müqavilələrindən ibarət olan sazişə əsasən ABŞ göstərəcəyi maliyyə-iqtisadi yardımın müqabilində Türkiyə ərazisindəki hərbi bazalardan öz silahlı qüvvələrinin məqsədləri üçün istifadə etmək hüququnu əldə etdi. Həmin sazişdə ABŞ tərəfindən bu bazaların müasirləşdirilməsi, genişləndirilməsi və yeni hərbi obyektlərin yaradılması nəzərdə tutulurdu.

Andlaşmaya əsasən hərbi-hava qüvvələrinin İnjirlikdə yerləşən bazası, 2 radioelektron stansiyası, radionaviqasiya və seysmik stansiyaları, 7 rabitə qurğusu ABŞ hərbi qüvvələrinin istifadəsinə verilirdi (9, 219). Əldə olunmuş razılaşmaya əsasən, mövcud olan hərbi-hava limanlarının müasirləşdirilməsinə və yenilərinin yaradılmasına başlanıldı. Yaxın və Orta Şərqdə ən böyük və hər bir təminatlı hərbi təyyarələri qəbul etmək iqtidarında olan, Muşda yerləşən hərbi hava limanı bu obyektlərdən biri idi.

ABŞ ilə Türkiyə arasında «müharibənin başlanması halında və böhranlı şəraitdə» Türkiyə ərazisindən istifadə olunması şərtlərinə dair razılaşma əldə olundu. ABŞ-ın böyük imtiyazlar əldə etməsinə baxmayaraq, imzalanmış sazişi bir çox rus türkoloqları Türkiyə tərəfinin qələbəsi kimi də qiymətləndirirlər(10, 24). Belə ki, yeni saziş ABŞ-ın texniki-iqtisadi yardımı ilə Türkiyənin hərbi sənayesinin yaradılmasına xüsusi diqqət verirdi. Söhbət yalnız Türkiyəyə Amerika silahının ixracından getmirdi. Bundan başqa

Türkiyə tərəfi rəsmən bəyan edirdi ki, ABŞ birgə müdafiə obyektlərindən yalnız Türkiyənin xüsusi razılığı ilə istifadə edə bilər. Bütün bu güzəştləri İrandakı mövqelərini itirmiş və bunu Türkiyənin hesabına kompensasiya etməyə çalışan ABŞ administrasiyasının düşdüyü vəziyyəti dərindən başa düşən Türkiyə diplomatiyasının incə və məharətli gedişlərinin nəticəsində əldə etmək mümkün olmuşdu.

1980-ci il 12 sentyabr çevrilişindən sonra Türkiyənin daxili siyasi həyatında mühüm dəyişikliklər baş verməsinə baxmayaraq xarici siyasətdə ənənəvi kurs toxunulmaz qalırdı. Çevriliş günü XİN-in baş katibi İ.Türkmən xarici diplomatları nazirliyə dəvət edərək onlara məlumat vermişdi ki, xarici siyasətdə dəyişikliklər olmayacaq və Türkiyə mövcud müqavilələrə sədaqətini saxlayacaqdır(11, 267).

1980-ci il çevrilişindən bir neçə gün sonra – 27 sentyabrda yeni hökumətə baş nazir təyin olunan V.Ulusu Milli Təhlükəsizlik Şurasının beş üzvü qarşısında açıqladığ hökumət proqramında xarici siyasətin əsas istiqamətlərini belə müəyyən etmişdi: «Atatürkun müəyyən etdiyi sülhsevər kursa sadiq qalaraq bütün ölkələrlə suverenlik, ərazi toxunulmazlığına hörmət və sayqıya əsaslanan bərarbər hüquqlar əsasında münasibətlərin davam etdirilməsi, Türkiyənin iştirak etdiyi ikili və çoxtərəfli müqavilələrə sədaqət və bağlılıq, NATO və ABŞ ilə əlaqələrin genişləndirilməsi, Avropa Birliyinə tam üzvlük üçün çalışılması, Ərəb ölkələri, İran və Pakistan ilə əlaqələrin qonşuluq və coğrafi yaxınlığın tələb etdiyi bir düşüncə əsasında inkişaf etdirilməsi, Fələstin xalqıqın haqlı mübarizəsinin dəstəklənməsi, SSRİ ilə olan dostluq münasibətlərinin inkişaf etdirilməsi, Yunanıstanla olan problemlərin ədalətli və qarşılıqlı maraqlara uyğun şəkildə həll edilməsinə cəhd göstərilməsi, Kiprdə iki bölgəli və iki icmalı federal dövlətin yaradılmasına çalışılmalı və s.» (8, 57).

Təsadüfi deyil ki, NATO və ABŞ ilə əlaqələrin genişləndirilməsi 80-cı illər Türkiyəsinin xarici siyasətinin ana xəttini təşkil edirdi. Ümumiyyətlə, keçən əsrin 80-ci illərində ABŞ hakim dairələrinin strategiyasında Türkiyənin mövqeyinə, roluna xüsusi əhəmiyyət verilməyə başlandı və bu özünü ABŞ-ın Türkiyəyə çoxcəhətli yardımında büruzə verdi. Belə ki, 1981-1988-ci illərdə ABŞ Türkiyəyə 4 milyard dollar məbləğində yardım göstərmişdir. Türkiyə tarixçisi N.Uslu Türkiyə-ABŞ münasibətlərinin daim yüksək səviyyədə olmasının əsas səbəbini belə müəyyən etmişdir: «Türkiyənin hərbi və iqtisadi yardıma ehtiyacı, ABŞ-ın Türkiyənin yardım istəklərinə verdiyi qarşılıq Türkiyə-ABŞ münasibətlərində hər zaman mühüm rol oynamış önəmli faktor olmuşdur» (9, 204). ABŞ ilə Türkiyə arasında 1982-ci ilin 29 noyabrında imzalanmış «Qarşılıqlı anlaşma haqqında» memorandum bunu təsdiqləyən diplomatik sənədlərdəndir.

Türkiyənin xarici siyasətində Almaniya Federativ Respublikası (AFR) ilə münasibətlərin inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verilir. Bu münasibətlərdə də Qərb tərəfi «yardımçı» rolunda çıxış edir və iki dövlət arasındakı əməkdaşlıq daha çox hərbi-siyasi səciyyə daşıyır. Qərbi Almaniyanın Türkiyəyə hərbi yardımı 1964-cü ildən həyata keçirilir. Həmin yardımın müəyyən qismi əvəzsiz ödənilir. Artıq 1986-cı ilə doğru Türkiyəyə göstərilmiş Almaniya yardımının məbləği 1 milyard 450 min marka təşkil edirdi(13, 60).

AFR-in Türkiyəyə hərbi yardımı haqqında ikitərəfli saziş 1986-cı ilin 23 yanvarında imzalanmışdır. Modernləşmə prosesində AFR silahlı qüvvələrində meydana çıxan artıq hərbi texnika və ləvazimat vaxtaşırı Türkiyəyə verilirdi. 1979-1987-ci illər ərzində «artıq çıxmış» AFR hərbi təyyarələri və tankları «ikinci yardım paketi» çərçivəsində Türkiyəyə verilmişdi. Həmin illərdə Türkiyənin xarici ticarət dövriyyəsində AFR birinci yeri tutmaqda idi. Qərbi Almaniya kapitalının Türkiyəyə yatırılmasına da böyük əhəmiyyət verilirdi. Türkiyədən işçilərin Almaniyaya gəlişi və orada onların sosial vəziyyəti bu dövrdə hər iki dövlətin rəsmi dairələrini narahat edən problem səviyyəsinə

yüksəlmişdi: artıq Almaniyada 1986-cı ildə 1,4 milyon Türkiyə vətəndaşı yaşayırdı(13, 60). Qərbi Almaniya Türkiyəyə yardım üzrə Beynəlxalq Konsorsium çərçivəsində iqtisadi yardım göstərmiş dövlətlər arasında xüsusilə fərqlənirdi.

Türkiyə xarici siyasətinin ən mühüm məqsədlərindən biri ölkənin «avropalaşdırılması»ndan (və ya «vesternizasiyasından») ibarətdir. Türkiyə rəsmi dairələri keçən əsrin 80-ci illərində Avropa İqtisadi Birliyinə (AİB) daxil olmaq üçün ilk əməli addımlar atdılar. AİB-in təsis olunması haqqında müqavilə 1957-ci ilin 25 martında Romada imzalanmış, 6 dövlət nümayəndəsinin (Fransa, İtaliya, AFR, Belçika, Niderland və Lüksemburq) imzaladığı müqavilə 1958-ci ilin 1 yanvarından qüvvəyə minmiş, 1971-ci ildən təşkilata daha üç dövlət (Böyük Britaniya, İrlandiya və Danimarka) daxil olmuş, 1981-ci ildə Yunanıstan bu Birliyə daxil edilmiş, 1985-ci ildə isə İspaniya və Portuqaliya da təşkilatın üzvünə çevrilmişlər (12, 139). Bu təşkilatı yaradanların fikrincə AİB siyasi ittifaq, nəticə etibarilə federal və ya konfederal tipli vahid dövlət olmalı, ABŞ-ın artan iqtisadi ekspansiyası qarşısında sipər rolunu oynamalı idi. Artıq 1988-ci ildə AİB-ə 12 Qərbi Avropa dövləti daxil idi.

Nəzərdən keçirilən dövrdə Türkiyə bu təşkilatın işində assosiasiyalı üzv hüquqnda iştirak edirdi. Lakin Türkiyənin hakim dairələri ölkənin AİB-ə tamhüquqlu üzv olmasına çalışırdılar. Çevrilişdən sonra Avropadakı maraqlı qüvvələr bu hadisəni Türkiyədə demokratiyanın pozulması halı kimi qiymətləndirirdilər. Belə mövqe Türkiyənin «xristian klubu olan» AİB ilə əlaqələrinə mənfi təsir göstərməyə bilməzdi. Belə ki, Türkiyə şuradan çıxarılmasa da, onun təşkilatın ayrı-ayrı orqanlarında iştirakı məhdudlaşdırıldı. Bu hal 1983-cü il seçkilərinin sonunadək davam etdi(8, 104). 1987-ci ildə Türkiyə bu və digər Avropa miqyaslı beynəlxalq təşkilatlara qəbul olunması xahişi ilə rəsmi müraciət etdi. Lakin həmin təşkilatların rəhbərləri Türkiyənin rəsmi müraciətinə mənfi cavab verdilər.

Qərb ekspertləri belə hesab edirdilər ki, Türkiyə iqtisadi inkişaf baxımından «ümumi bazara» daxil olmağa hazır deyil. Onların fikrincə, Türkiyə iqtisadiyyatın həm özəl, həm də dövlət sektorlarında texnologiyanı və idarəçilik sistemini yaxşılaşdırmalı, ölkə iqtisadiyyatı rəqabət qabiliyyətli halına gətirilməlidir. Əslində isə qərb ekspertləri Türkiyənin kənd təsərrüfatı, yüngül sənaye, maşınqayırma və elektrik sənayesi məhsulları və xammal ilə Cənubi Avropada üstün mövqe qazanacağından ehtiyat edirdilər(5, 54). AİB-in üzvü olan dövlətlər bu təşkilat hüdudlarında türk işçi qüvvəsinin azad yerdəyişməsinin də əleyhinə çıxırdılar. Qərbi Avropada belə bir fikir qərarlaşmışdı ki, Türkiyədə demokratiyanın və insan hüquqlarının bərpa olunması sahəsində problemlər hələ də qalmaqdadır. Qərb ekspertləri 1980-ci il 12 sentyabrında Türkiyədə baş vermiş hərbi çevrilişi, 1982-ci ildən etibarən ordu generalı Kenan Evrenin prezident olmasını qeyri-demokratik hal kimi qiymətləndirir, ölkədə demokratiyanın bərpası prosesinin ləng getdiyini qeyd edirlər. Bu mənada ABŞ-ın mənəvi dəstəyi Avropa dövlətlərinin inamsızlığına qarşı tarazlıq rolu oynayırdı.

ABŞ-ın Türkiyədəki keçmiş səfiri R.Romer «Yanki» jurnalına verdiyi müsahibədə göstərirdi ki, «Görünür qərbdə bilmirlər ki, hərbçilər Türkiyədə demokratiyanı xilas etdilər, onlar anarxiyanın qarşısını aldılar və iqtisadiyyatı canlandırdılar» (11, 268). Qərb siyasətçilərinin Türkiyədə insan hüquqları problemini başlıca arqument kimi götürməsi uzaqgörən məqsədlər güdür və Türkiyənin AİB-ə inteqrasiyasını əngəlləməyə xidmət edir.

1983-cü ilin sonlarında Ana Vətən Partiyasının sədri, iqtisadçı Turqut Özal Türkiyənin baş naziri seçildi və xarici siyasət sahəsində canlanma müşahidə olunmağa başladı. Lakin nə bu canlanma, nə də görülmüş diplomatik tədbirlər Türkiyənin 80-ci illərdə «ümumi bazar»a tam hüquqlu üzv olunması üçün kifayət etmədi.

Yunanıstanla münasibətlər nəzərdən keçirilən dövrdə də Türkiyənin xarici siyasətinin əsas problemlərindən biri idi. Kipr problemi yeni tarixi şəraitdə iki dövlət arasındakı ziddiyyətlərin başlıca səbəblərindəndir. 1974-cü ildə Türkiyə Kiprdə yunanların hərbi çevrilişinə cavab olraq adanın şimal hissəsinə özünün silahlı qüvvələrini yeritmiş, adanın 38 %-ni öz nəzarəti altına almış (3, 29), 1975-ci ildə Kiprin şimal hissəsində yaşayan türk icması dövlət yaratdığını elan etmiş, həmin siyasi qurum yalnız Türkiyə tərəfindən tanınmışdı (16). Qərb Türkiyəni Kiprin parçalanmasının başlıca səbəbkarı hesab edir, Böyük Britaniyanın və Yunanıstanın 1960-cı ildən adada apardıqları təxribat tədbirlərini «unudur»du.

Türkiyənin mövqelərinin möhkəmləndirilməsi və Yunanıstana təzyiqlər göstərilməsi məqsədilə 1983-cü ilin 15 noyabrında adanın şimal hissəsində Şimali Kipr Türk Cümhuriyyəti elan olundu (2, 79). Kipr problem isə Türkiyənin Qərbi Avropa təşkilatlarına (xüsusilə «ümumi bazara») inteqrasiyası yolunda böyük əngələ çevrilmişdi (1, 63). Egey dənizinin mübahisəli problemləri iki dövlət arasındakı münasibətlərdə mühüm yer tutur. Yunanıstan beynəlxalq müqavilələrin əksinə olaraq Egey dənizi hövzəsində özünəməxsus olan və daha çox Türkiyəyə yaxın mövqedə yerləşən (5,5 kilometrdən 22 kilometrədək məsafədə) adalarda hərbiləşdirmə tədbirləri həyata keçirirdi ki, bu Türkiyənin haqlı narazılığına səbəb olurdu.

Dəniz sərhədləri və Egey dənizi üzərindəki hava məkanı haqqında mübahisələr də tərəflərin hərbi-stareji mənafeləri ilə müəyyən olunurdu. Egey dənizində olan adalardan neft yataqlarının axtarışı da Türkiyə və Yunanıstan arasındakı ziddiyyətdəri artırmışdı. AİB-ə 1981-ci ildə qəbul olunmuş Yunanıstan hər vasitə ilə Türkiyənin Qərbə inteqrasiyasını əngəlləməkdə idi. Türkiyə ilə eyni vəziyyətdə olan Yunanıstanın 1981-ci ilin 1-i yanvarında AİB-ə tam hüquqlu üzv kimi qəbul edilməsi Türkiyə üçün arzuolunmaz yenilik idi. Çünki Yunanıstan kənd təsərrüfatı mallarının ixracı baxımından daha avantajlı duruma yüksəldiyi üçün bu qurum daxilində Türkiyə əleyhinə veto hüququ da əldə etmiş oldu(8, 104).

XX əsrin 80-ci illərində Türkiyənin xarici siyasətində Yaxın və Orta Şərq ölkələri ilə münasibətlərin inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verilirdi. Türkiyənin bölgədə yeritdiyi xarici siyasətin başlıca prinsipləri aşağıdakılardan ibarət idi: siyasi orientasiyasından asılı olmayaraq bütün müsəlman ölkələri ilə sıx münasibətlərin qurulması və inkişaf etdirilməsi; bölgə ölkələri arasındakı münaqişələrə qarışmamaq; bölgə problemlərinin hər hansı bir xarici müdaxilə olmadan, sülh yolu ilə həll olunmasına yardım edilməsi; Yaxın Şərq münaqişəsində ərəb ölkələrinin mövqeyinin müdafiə olunması; Fələstin xalqının «haqq işinin» dəstəklənməsi.

Ərəb ölkələri ilə münasibətlərin yaxşılaşdırılmasına meyl Türkiyənin bölgədə İsrailin işğalçılıq siyasətinə mənfi münasibəti ilə müəyyənləşmişdi. 1980-ci ilin iyulunda İsrail Qüdsü özünün «əbədi paytaxtı» elan etdikdən sonra Türkiyə avqust ayında bu şəhərdəki baş konsulluğunu bağladı, noyabr ayında isə İsraillə diplomatik münasibətlərini ikinci katib səviyyəsinədək endirdi. Lakin Türkiyənin müsəlman ölkələri ilə ticarət dövriyyəsi xeyli artdı. Bu isə 70-ci illərdə neftin qiymətinin artımı və həmin ölkələrə Türkiyə ixracının genişlənməsi ilə izah oluna bilər. 80-cı illərdə Türkiyə iqtisadiyyatının ixraca yönəmli sahələrinin inkişafı, habelə İran-İraq müharibəsi ticarət əlaqələrinin inkişafına əlverişli şərait yaratmışdı.

İran-İraq müharibəsində bitərəf mövqe tutmuş Türkiyə özünün kənd təsərrüfatı və sənaye məhsullarının satışı üçün xeyli əlavə bazar əldə etmişdi. Lakin 80-cı illərin ikinci yarısında neftin satış qiymətinin aşağı düşməsi nəticəsində Türkiyə əmtəələrinin neft hasil edən müsəlman ölkələrinə ixracı imkanları azaldı. Bu dövrdə Yaxın və Orta Şərq ölkələrində Türkiyə inşaat firmalarının fəaliyyəti xeyli genişlənmişdi. Məs., 1986-

cı ildə ərəb ölkələrində Türkiyə firmalarının götürdükləri işlərin ümumi məbləği 16 milyard dollardan artıq idi (13, 65). Türkiyə firmalarının fəallığı İraqda, Liviyada və Səudiyyə Ərəbistanında xüsusilə nəzərə çarpırdı.

Türkiyənin İran və İraqla münasibətlərinin xüsusiyyəti daha çox kürdlərin separatçı hərakatının yatırılması sahəsində əməkdaşlıqla müəyyən olunur. 1984-cü ildə Türkiyənin İran və İraqın kürd hərbi bazalarının yerləşdiyi bölgələrinə öz qoşunlarını yeritməsi İran tərəfindən qəbul edilmədi. İraqın sərhədboyu ərazilərində isə Türkiyə qoşunları kürd separatçılarına qarşı hərbi əməliyyatlar apardılar. İranda baş vermiş inqilabdan sonra Türkiyənin «dost ölkələr» siyahısına salınması qonşu ölkəyə qarşı son dərəcə həssas və diqqətli siyasət yeritmyi tələb edirdi. İran-İraq müharibəsinin ilk illərində Türkiyənin hər iki ölkə ilə ticarət aparması Tehranın narazılığına səbəb olmuşdu (6).

Bununla belə, 1981-ci ildə Qərb ölkələrinin İrana qarşı təşkil etdikləri iqtisadi boykotda Türkiyənin iştirak etməkdən imtina etməsi iki ölkənin yaxınlaşmasına səbəb oldu. Lakin İranın «islam inqilabının ixracı» ideyası ilə bağlı Türkiyədəki ələviləri müdafiə etməsi, Türkiyənin isə İrandan mühacirət etmiş mühacirlərə sığınacaq verməsi münasibətlərdəki gərginliyin başlıca səbəbi idi. Lakin Qərbin İrana qarşı təcrid siyasəti onu Türkiyə ilə əlaqələrin genişləndirilməsinə sövq edirdi. 1985-ci iln yanvarında İran İslam Respublikasının baş naziri M.Musəvinin Ankaraya rəsmi səfəri və səfər zamanı İrandan Türkiyəyə qaz və neft kəmərlərinin çəkilişini nəzərdə tutan sazişin imzalanması da bunun bariz nümunəsi idi (4).

Regionda sülh siyasəti yeridən Türkiyə İran-İraq müharibəsinin bitməsi yönümündə də öz səylərini əsirgəmirdi. Bir sıra rus müəlliflərinin Türkiyənin «müharibənin davam etdirilməsində kommersiya maraqları olduğu» fikrini iddia etmələrinə baxmayaraq, ölkə diplomatiyası müharibənin başa çatdırılmasında böyük səylər göstərmişdi (14, 47). Türkiyə İranla mal dövriyyəsinin artımında da son dərəcə maraqlı idi. Təsadüfi deyil ki, M.Musəvi 1989-cu ilin martında birgə ticarət-iqtisadi komissiyanın işində iştirak etmək üçün Ankarada rəsmi səfərdə olarkən iki ölkə arasında qarşılıqlı mal dövriyyəsinin 2 milyard dollaradək artırılması ilə bağlı sənəd imzalanmışdı. 1984, 1986 və 1987-ci illərdə İran və Suriya ilə həmin ölkələrin ərazisində hər hansı qrupun digər tərəfə qaşı təxribatçı əməllərinə yol verilməməsinə dair razılaşmalar da əldə edilmişdi.

SSRİ-nin Əfqanıstana hərbi müdaxiləsindən sonra Türkiyə rəsmi dairələrinin Sovetlər Birliyinə münasibəti dəyişdi. Lakin iri qonşu dövlətlə münasibətlərin gərginləşdirilməsi Türkiyənin milli mənafelərinə uyğun deyildi. 1986-cı ilin 28 iyulundan 5 avqustunadək Türkiyənin baş naziri Turqut Ozal SSRİ-yə rəsmi səfər etdi. Qarşılıqlı etimad hissinin olmaması iki qonşu dövlətin siyasi, diplomatik, iqtisadi əməkdaşlığına əngəl törədirdi. XX əsrin 80-cı illərində də böyük qapalı sistem halında varlığını davam etdirən SSRİ-də Türkiyəyə «ABŞ-ın və Qərbin mənafelərinin təmsilçisi», «potensial rəqib» kimi yanaşılırdı. Türkiyə siyasi dairələrində də Sovetlər Birliyi «Yaxın və Orta Şərq xalqları üçün təhlükə»kimi qiymətləndirilirdi.

Beləliklə, XX əsrin 80-cı illərində Türkiyənin xarici siyasəti ölkənin daxili iqtisadi, siyasi, sosial inkişafının bariz göstəricisi idi. Nəzərdən keçirilən dövrdə Türkiyə iri, potensial baxımdan güclü olan Qərb dövlətlərinin yardımından faydalanmış, Yaxın və Orta Şərqdə isə daha fəal mövqe tutaraq özünün iqtisadi potensialını artıra bilmişdi. Türkiyənin AİB-ə daxil olmaq üçün ilk cəhdləri məhz bu dövrə təsadüf edir. 80-cı illərdə Türkiyə beynəlxalq münasibətlərin fəal subyektlərindən olmuş, türk dövlətçiliyinin ən yaxşı ənənələrini yaşatmışdır.

## ƏDƏBİYYAT

1. Alasya H. Fikret. Tarihte Kıprıs.- Lefkoşa. - 1988.
2. Alasya H. Fikret. Kuzey Kıbrıs cumhuriyyeti tarihi. - Ankara, 1987.
3. Arslan Zühti. Türk dış politikasında temel bir sorun: KKTC (dünü-bugünü-yarını).cilt 6. temmuz, Ankara., 1989.-S29.
4. Cumhuriyyet. - 1985. - № 18.
5. Çayhan E. Türkiye - AB ilişkileri.-İstanbul, 1997.
6. Günaydın. - 1986. - № 6.
7. Qocatürk U. Atatürk. Tərcümə və qeydlər D.Vəliyevindir. - Bakı, 1991.
8. Türkiye tarihi. 5.cilt. Bugünkü Türkiye 1980-1995. -Ankara, 2001.
9. Uslu N. 1947-den günümüze Türk-Amerikan ilişkilerinin Genel portesi// Avrasiya Dosyası: ABD. Ozel yayım. - 2000. - Cilt 6: sayı 7.
10. Данилов В.И. Турция 80-х: от военного режима до «ограниченной демократии». - М., 1991.
11. Sitat götürülmüşdür: Данилов В.И. Политическая борьба в Турции (50-е, нач. 80-х годов XX века). - М., 1985.
12. Максимова М. Европейское сообщество: 30 лет спустя. Международный ежегодник. Политика и экономика. Выпуск 1988.-М.,1988.
13. Турецкая Республика. Справочник. - М., 1990.
14. Ушаков В.А. Иран и мусульманский мир. - М., 1999.
16.http://www.emu.edu.tr/english/ingeneral/trnc/books/sabahattinismail150soru/cevaplar/Soru88.htm

**ИГБАЛ АЛИЕВ**

### ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ВНЕШНЕЙ ПОЛИТИКИ ТУРЦИИ В 80 ГГ. XX ВЕКА

В этой статье были исследованы основные направления внешней политики Турции в 80 гг. XX века. Автор предпринял попытку определить основные приоритеты внешне – политического курса Турецкой республики в рассматриваемый период. Кроме того, в статье исследуются отношения Турции с западными странами, странами мусульманского Востока и отношения между Турцией и Европейским Союзом

**IGBAL ALIYEV**

### THE MAIN DIRECTIONS OF FOREIGN POLICY OF TURKEY IN THE PERIOD 80$^{TH}$ OF XX CENTURY

In the article had been investigated the main directions of foreign policy of Turkey in the period 80$^{th}$ of XX century. The author tried attempt to define the main prioritys of Turkey foreign policy course at this period. In addition in the article also had been lighted relations between Turkey and west Europe, Turkey and Muslim East, Turkey and European Union.

***Rəyçilər: t.e.d.S.T.Hacıyev, t.e.d.İ.M.Məmmədov.***
***BDU Tarix fakültəsi «Asiya və Afrika ölkələri tarixi» kafedrasının 05 dekabr 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №03).***